***Ey Tanrım, sən mənə bir az ömür ver***

Öpsəm ruzgarlardan təzədən bu gün
Çinar tək boy verən bayraqlarını,
Yensəm bayrağının o üç rənginə,
Yensəm, ulduzuna, ayına yensəm,

Min ildir içimi göynədən sözün
Qırx qatda yaşayan sirrindən keçib
Yensəm Araz adlı çayına yensəm,
Dönsəm Borçalıda, Qarayazıda

O ulu Göyçədə itən məzarda
Ölməyən ruhların hayına dönsəm,
Susan sükutumun üstündən keçib
Iyirmisi yanvarda qəfildən gələn

Tufanın önündə çinar tək duran
Donan heyrətimi adlaya bilsəm,
Məni adamlıqdan eyləyən hissi –
Içimdə dözümü odlaya bilsəm,

Qızlar bulağından  o su içməyən,
Balaca köksünü on üç yaşında
Yağıya bir sipər eyləyən qızın
Qanlı köynəyini namusum kimi,

Tabutu önündən qisas gününə
Yenməyən bayraq tək apara bilsəm,
Küçədə-bacada dərdim-qəmim tək.
Asılan o qara bayraq bir yana

Min ildir haqqını gəlmələr yeyən
Yası tükənməyən Azərbaycanım,
Ruhundan asılan qara bayrağın
Tilsimin sındırıb, qopara bilsəm...

 Bu əsrin sonunda əyləşən köçü
Götürüb tilsimli nağıllardakı

Qırxıncı qapıdan keçirə bilsəm...
Nə qədər gücsüzəm, indi yalqızam;
Qanım dəniz-dəniz sellənib gedər.

Ən gözəl sözüm də tabutlar üstə
Ağıdı – qan ağlar, dillənib gedər...
Bu dərdi çəkməyə mənəm tablaşan
Çəkəmməz bu dərdi o göylər, bu yer.

İntiqam almağa, qisas almağa,
Ey tanrım, sən mənə bir az ömür ver!

Behrudi R. Ey tanrım, sən mənə bir az ömür ver! : şeir // Azərbaycan. - 1992. – 16 yanvar.